**Nümayəndəlik xərcləri və vergilər**

***Qulu Soltanov,***
sərbəst auditor

Əvvəlki sayımızda qeyd edildiyi kimi, nümayəndəlik xərclərinə aid edilən əməliyyatların quruluşunun ezamiyyə xərclərinə aid edilən əməliyyatlara uyğun gəlməsindən bəzən sui-istifadə halları yaradanlar olur. Çəkilən nümayəndəlik xərclərinin həqiqiliyini üstəlik olaraq təsdiq edən və ya sübuta yetirən bütün sənədli imkanları mühasib əldə etməkdə maraqlı olmalıdır.

Nümayəndəlik xərclərini təsdiq edən ilkin sənədlərin faktiki mövcudluğu təsərrüfat əməliyyatının baş verdiyini sübut etməyə əsas olmasına baxmayaraq, həmin sənədlərin nymayəndəliklə bağlılığına təminat verməsini təsdiq edən «qeyri-mühasibat» sənədlərinin də toplanması daha məqsədəmüvafiq olardı. Elə qeyri-mühasibat sənədləri vardır ki, onlar mühasibat və ya vergi uçotunun məqsədləri üçün ilkin (uçot) sənədlər sayılmasa da, nümayəndəliklə bağlı əməliyyatların real baş verməsini bir daha sübut etməyə imkan verir.

Bu qeyri-mühasibat sənədlərinə aşağıdakıları aid etmək olar:

· işgüzar görüşün (tədbirin, iclasın) müəssisənin rəhbəri və ya səlahiyyətli şəxsi tərəfindən təsdiqlənmiş proqramı. Proqramda, həmçinin tədbirin keçirilmə vaxtı və yeri göstərilməlidir;

· dəvət olunmuş nümayəndələrin siyahısı. Siyahıda həmin şəxslərin adı, soyadı və atasının adı, şəxsiyyətini təsdiq edən sənədin rekvizitləri, nümayəndə xarici vətəndaş olduğu halda viza sənədlərinin surətləri, hansı müəssisəni təmsil etmələri göstərilə bilər;

· nümayəndəyə dəvətlə bağlı göndərilən məktub;

· xüsusi hazırlanmış siyahıda nümayəndələrin iştirak etmələrinin təsdiqi məqsədilə iştirak etməsinə dair imzaların edilməsi.

Göstərilən sənədlər çəkilmiş xərclərin gəlirin alınması ilə bağlı olub-olmaması barədə rəy formalaşdırmaqda kömək ola bilər.

Dəvət olunmuş nümayəndəyə işlədiyi müəssisədən ezamiyyə xərclərinin ödənilməsi də mümkündür. Ola bilsin ki, nümayəndə onun bütün ezamiyyə xərclərinin dəvət edən müəssisə tərəfindən ödənilməsi şərtilə dəvət olunur. Müəssisəyə hər hansı kənar nümayəndə dəvət edənin kommersiya marağından irəli gələn bəzi mötəbər tədbirlər daha çox məsrəflər hesabına başa gəldiyindən dəvət göndərən müəssisə nümayəndə üçün əlavə xərclər çəkə bilər. Əvvəlcədən nümayəndəyə dəvətlə bağlı göndərilən məktubda nümayəndənin nəqliyyat, kommunal, yemək və digər zəruri xərclərinin müəssisə tərəfindən ödənilib-ödənilməməsi barədə qeydlərin göstərilməsi daha məqsədəmüvafiq olardı. Bu qeydlər barədə məlumatların mühasibatlıqda saxlanılması vacibdir.

Vergi Məcəlləsində nümayəndəlik xərcləri barədə ayrıca bir müddəa verilməyib. Gəlirdən çıxılmayan və gəlirdən məhdudlaşdırılmaqla çıxılan xərclərin tərkibində də nümayəndəlik xərcləri barədə konkret məzmunlar göstərilməyib. Əgər gəlirin alınması ilə bağlı sənədləşdirilmiş məlumat əsasında nümayəndəlik xərcləri çəkilmişdirsə, həmin xərcləri gəlirdən çıxmaq olar. Əks halda, bu xərclərin gəlirdən çıxılmasına yol verilmir.

Məsələn, nümayəndələrin yemək xərclərini təsdiq edən restoran və ya kafelərin təqdim etdiyi çeklərə əlavə olaraq, yemək menyularının və içkilərin adlarını, sayını və qiymətlərini əks etdirən hesab sənədi tikilməsinə nail olmaq lazımdır. Həmin sənəddə dəvət olunmuş nümayəndələr və yalnız onları müşayiət edən müəssisənin nümayəndəsinin (nümayəndələrinin) birgə sayından artıq istifadə olunmuş yemək xərcləri gəlirdən çıxılan nümayəndəlik xərclərinə aid edilməməlidir. Yəni əgər nümayəndələrlə birlikdə müəssisənin 5-10 və ya daha artıq işçisi nahar və ya şam yeməyində iştirak edirlərsə, yemək xərclərinin müəssisənin işçilərinin payına düşən hissəsi gəlirdən çıxılan nümayəndəlik xərclərinə aid edilməməlidir.

Nümayəndəlik xərcləri çox hallarda qeyri-kommersiya təşkilatlarında baş verir. Qeyri-hökumət təşkilatlarının öz məqsədləri çərçivəsində həyata keçirdikləri xeyriyyə, sosial, ictimai və s. tədbirlərinə, görüşlərinə, konfranslarına dəvət etdiyi nümayəndələrin qəbulu və onlara xidmət göstərilməsi ilə bağlı xərcləri QHT-nin əsas məqsədinə aid olan xərclərindən biridir. Lakin bu xərclər QHT-lərin əsasən qeyri-sahibkarlıq (qeyri-kommersiya) fəaliyyəti ilə bağlı olduğuna görə hər hansı

vergitutmaya təsir etmir. Sənədli məlumat əsasında həmin nümayəndəlik xərclərinin tam məbləği QHT-də ümumi xərclərə aid edilir.

Kommersiya müəssisələrində isə nümayəndəlik xərclərinin mənfəət vergisinin müəyyənləşdirilməsi məqsədilə gəlirdən çıxılan xərclərə aid edilməsi bir çox ciddilik və dürüstlük tələb edir. Nümayəndəlik xərclərinin məhz gəlirin alınması ilə bağlı olduğuna tam əminlik yaradılması üçün bütün mümkün sənədləşmələrdən istifadə olunmalı, əməliyyatların məzmunlarının yazılış ifadələri hər hansı çaşqınlıq yaratmamalıdır.

Nümayəndəlik xərcləri mühasibat uçotunda inzibati xərclər kimi nəzərə alınır və hesablar planında 721 və 711 [1]-li hesablarda əks etdirilməsi tövsiyə olunur.